# Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı Gənclər Birliyinin IV konfransı

Aprel ayının 2-də Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı Gənclər Birliyinin konfransı keçirilib. Konfrans iştirakçıları öncə Yeni Azərbaycan Partiyasının yaradıcısı, gənclərin böük dostu və hamisi olmuş, ümummilli lider Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül-çiçək dəstələri düzmüş, dahi rəhbərin xatirəsini ehtiramla yad etmişlər.

Rayon Mədəniyyət Mərkəzində baş keçirilən konfransı giriş sözü ilə Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının sədri Abil Ağasəfov açmışdır. Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı Gənclər Birliyinin keçən konfransından sonrakı fəaliyyəti barədə hesabat məruzəsi ilə Gənclər Birliyinin sədri Ramil Qəribov çıxış etmişdir.





Natiq qeyd etmişdir ki, Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının Gənclər Birliyi, gənclərimiz rayonun ictimai-siyasi və iqtisadi həyatında fəal iştirak edir. Gənclər Birliyi 2300-ə qədər gənc YAP üzvünü əhatə edir. Bununla belə rayondakı bütün gənclərlə iş aparılır. Gənclərin asudə vaxtlarının səmərəli təşkili üçün fəaliyyətimizi rayon gənclər və idman idarəsi, təhsil, mədəniyyət və turizm şöbələri ilə əlaqəli qururuq. Hesabat dövründə gənclərin fəallığını artırmaq üçün ümummilli lider Heydər əliyevin irsinin təbliğinə həsr olunmuş məşğələlər, Azərbaycan dövlət gənclər siyasəti ilə əlaqədar dəyirmi masalar, tematik görüşlər keçirilmişdir.

Məruzə ətrafında çıxış edən gənclər birliyinin üzvləri Ceyhun Əhmədov, Aytəkin Əhmədova, Könül Kərimova və başqaları YAP Qəbələ Rayon Təşkilatı Gənclər Birliyinin fəaliyyətini qənaətbəxş qiymətləndirmiş, çalışdıqları sahələrdə görülən işlərdən bəhs etmiş, gənclərin fəallığını daha da yüksəkltmək üçün təkliflərini vermişlər.





Konfransda iştirak edən Milli Məclisin deputatı, Respublika Ağsaqqallar Şurasının Sədri Fəttah Heydərov, Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev, «Yeni Azərbaycan» qəzetinin baş redaktoru Hikmət Baba oğlu, YAP Mərkəzi Aparatının məsul işçisi Emil Abasov Gənclər Birliyinin üzvlərini konfrans münasibətilə təbrik etmiş, gənclərin qarşısında duran vəzifələrdən danışmışlar. (Çıxışlar ixtisarla dərc olunur)

Konfrans YAP Qəbələ Rayon Təşkilatı Gənclər Birliyinin rəhbər orqanlarını-şura üzvlərini, idarə heyətini, sədrini və müavinini seçmişdir. Ağayev Namiq Tofiq oğlu Gənclər Birliyinin sədri seçilmişdir.

YAP Gənclər Birliyi növbəti konfransına nümayəndələr seçilmiş, konfransın qətnaməsi qəbul olunmuşdur.

Konfrans nümayəndələri yekdilliklə Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevə müraciət qəbul etmişlər.

Bir qrup fəal gəncə Qəbələ Rayon İcra Hakimiyyətinin Fəxri fərmanları və qiymətli hədiyyələr verilmişdir.

Konfrans işini başa çatdırmışdır.

**Qüdrət SƏMƏDOV.**

# Çıxışlar

## Səbuhi Abdullayev, rayon icra hakimiyyətinin başçısı.

**Hörmətli qonaqlar!**

**Hörmətli siyasi həmfikirlər, xanımlar və cənablar!**

Sizi Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatı Gənclər Birlyinin IV konfransı münasibətilə ürəkdən təbrik edir, rayon icra hakimiyyəti adından hamınızı salamlayıram.

**Hörmətli siyasi həmfikirlər!**

Azərbaycanın çağdaş tarixinin ən narahat və təlatümlü dövründə yaranan Yeni Azərbaycan Partiyası fəaliyyət göstərdiyi illər ərzində çox zəngin bir həyat yolu keçmiş, özünü ölkənin siyasi taleyində həlledici rol oynamaq qüdrətinə malik olan vahid siyasi qüvvə kimi təsdiq etmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin banisi olduğu Yeni Azərbaycan Partiyası yarandığı gündən böyük ictimai dəyərlərin daşıyıcısıdır. Partiyamız tarixin onun üzərinə qoyduğu məsuliyyəti strateji kurs kimi dərk etmiş, gücünü xalqın inamını doğrultmağa yönəltmişdir.

Ulu öndərimiz Heydər Əliyev ideyalarından qaynaqlanan bu nəhəng siyasi gücün xalqa doğma və yaxın olması Yeni Azərbaycan Partiyasının başlıca istinad mənbələrindəndir. Məhz buna görə də xalqımız partiyanın strategiyasına böyük inamla baxmış, siyasətini həmişə ürəkdən dəstəkləmişdir.

Bu gün müstəqil Azərbaycan Heydər Əliyev yolu ilə irəliləyir və inkişaf edir. Cəmiyyətin ən müxtəlif sosial təbəqələrini özündə birləşdirən partiyanın ictimai-siyasi proseslərə təsir imkanları ildən-ilə genişlənir, beynəlxalq nüfuzu artır.

Yeni Azərbaycan Partiyası rayon təşkilatının hazırda 5950 üzvü vardır. Onların 2327 nəfəri ali təhsillidir. Fərəhli haldır ki, partiya üzvlərinin 2388 nəfəri qadınlar, 2248 nəfəri isə gənclərdir.

Rayonumuzda iqtisadiyyatın inkişafı, əhalinin rifahının və sosial şəraitinin yaxşılaşdırılması, genişmiqyaslı quruculuq işlərinin aparılması, üzvlərinin əksəriyyəti gənclərdən ibarət olan partiyamızın düzgün siyasətinin nəticəsidir. Həyata keçirilən sosial-iqtisadi proqramlara uyğun olaraq son illərdə Qəbələdə görülən işlərin sadalanması üçün vaxt məhdud olduğuna görə təkcə bu istiqamətdə ötən il icra olunmuş işləri diqqətinizə çatdırmaq kifayətdir.

2014-cü ildə Mirzəbəyli-Çuxur Qəbələ-Dizaxlı-Çarxana avtomobil yolunda əsaslı təmir, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin daxili qoşunlarının "N" saylı alayında, qida şəhərciyində, kartof soyuducu anbarında, Çuxur Qəbələ kəndindəki Arxeoloji Araşdırmaların Tədqiqatı Mərkəzinin inzibati binasında, Qafqaz-Yengicə Termal Otel və SPA obyektində, 80 şagirdyerlik Yengicə kənd, 220 şagirdyerlik Zirik kənd tam orta məktəblərinin və Qəbələ şəhərindəki 5 nömrəli tam orta məktəbin binalarında tikinti işləri başa çatdırılmışdır.

Hazırda Qəbələ Futbol Akademiyası və stadionlar kompleksində, Dəmiraparan çayı üzərindəki 10 aşırımlı, 324 paqonometrlik beton körpüdə, "Aquapark" istirahət mərkəzində, "Tufandağ" dağ-xizək, yayqış istirahət kompleksinə daxil olan xizəkçilik mərkəzi və Tufangöl otelində, "Qrand siti" otelində, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin, rayon məhkəməsinin və prokurorluğunun inzibati binalarında, Savalan kəndindəki "Raftinq Mərkəzi"ndə, Laza sərhəd zastavasında, Nohur gölü ərazisindəki otellər kompleksində, gömrük akademiyasının, YAP Qəbələ Rayon Təşkilatının, "ASAN xidmət"in rayon filialının, kənd təsərrüfatı idarəsinin inzibati binalarında, atıcılıq və atçılıq idman mərkəzində tikinti-quraşdırma işləri aparılır. İl boyu Qəbələ şəhərində abadlıq işləri davam etdirilmiş, Həzi Aslanov və Sahil küçələrində yenidənqurma işləri başa çatdırılmışdır. Hazırda Seyid Əzim Şirvani və İsmət Qayıbov küçələrində tikinti-abadlıq işləri həyata keçirilir.

**(Ardı 3-cü səhifədə).**